Groupe d'Etats contre la corruption
Group of States against corruption

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

İnsan hüquqları və hüquqi məsələlər Bas Direktoratı
Dəyərləndirmə direktoratı

Strasburq, 01 oktyabr 2010

# GRECO III round dəyərləndirmə məruzəsi

# Azərbaycan üzrə cinayət məsuliyyəti üzrə dəyərləndirmə məruzəsi (ETS 173 və 191, GPC2) mövzu I

48-ci plenar iclasında

GRECO tərəfindən qəbul edilmişdir.

(Strasburq, 27 sentyabr-01 oktyabr 2010)

## I. <u>GIRIŞ</u>

1. Azərbaycan Respublikası Korrupsiyaya qarsı Dövlətlər qrupuna (bundan sonra GRECO adlanacaq) birinci dəyərləndirmə raundu bitdikdən sonra 1 iyun 2004-cü il tarixdə üzv olmuşdur. Bunun nəticəsi olaraq, Azərbaycanda Birinci və İkinci Dəyərləndirmə raundlarının mövzularını əhatə edən birgə dəyərləndirmənin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Müvafiq olaraq Azərbaycan Respublikası üzrə Birgə dəyərləndirmə Məruzəsi (GRECO Dəyərləndirmə hesabatı I/II 2005) GRECO-nun 29-cu Plenar İclasında (23 iyun 2006) təsdiq edilmişdir və GRECO-nun internet səhifəsində yerləşdirilmişdir. (www.coe.int/greco).

2. GRECO-nun cari III dəyərləndirmə raundu (1 yanvar 2007-ci il tarixdə başlamışdır) aşağıdakı mövzuları əhatə edir:

- **Mövzu I** – Cinayət məsuliyyəti: Korrupsiyaya ilə əlaqədar cinayət məsuliyyəti barədə Konvensiyanın (ETS 173) 1a və 1b maddələri, 2-12, 15-17, 19-cu paraqrafın 1-ci hissəsi, Əlavə Protokolun (ETS 191) 1-6-cı maddələri və Rəhbər Prinsiplər 2 (korrupsiyanın kriminallaşdırılması).
- **Mövzu II** – Siyasi partiyaların maliyyələşməsinin şəffaflığı: Siyasi partiyaların və Seçki kompaniyaların maliyyələşməsində Korrupsiyaya qarşı mübarizənin ümumi qaydaları haqqında Tövsiyələrin (Rec2003) 8, 11, 12, 13b, 14 və 16-cı maddələri və daha əsas Rəhbər prinsiplər (siyasi partiyaların və seçki kompaniyaların maliyyələşməsi).

3. GRECO Dəyərləndirmə qrupu 26-30 aprel 2010-cu il tarixdə Azərbaycan Respublikasına dəyərləndirmə səfəri həyata keçirmişlər. I Mövzu üçün GRECO Dəyərləndirmə qrupunun tərkibinə Fabrizio GANDİNİ, Alyona SMİRNOVA daxil olmuşlar. Qrupa GRECO katibliyindən Maykl YANSEN başçılıq etmişdir. Səfərdən əvvəl GRECO Dəyərləndirmə qrupunun ekspertləri Dəyərləndirmə Suallar Toplusuna cavabla təmin edilmişlər. (sənəd GRECO Dəyərləndirmə III (2010)2E, Mövzu I).

4. Səfər müddətində Qrup qeyd olunmuş dövlət qurumlarının rəsmiləri ilə görüşmüşdür: Ədliyyə Nazirliyi, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Daxili İşlər Nazirliyi (polis), Ali Məhkəmə, Bakı Apelyasiya Məhkəməsi və birinci instansiya məhkəmələri. Qrup habelə qeyri-hökumət təşkilatları (QHT-lərin Antikorrupsiya Şəbəkəsi, Azərbaycan Gənc Hüquqşünaslar Assosiasiyası, Azərbaycan Hüquqşünaslar Konfederasiyası, Konstitusiya tədqiqatlar Fondu, Vətəndaş hüquqlarının müdafiəsi liqası, Beynəlxalq şəffaflıq) və hüquqşünaslarla da görüşlər keçirmişdir.

5. Cari hesabat suallar toplusuna cavablar və səfər zamanı əldə edilmiş məlumat əsasında hazırlanmışdır. Bu hesabatın əsas qayəsi paraqraf 2-də göstərilmiş normalardan irəli gələn tələblərlə Azərbaycan səlahiyyətli orqanları tərəfindən həyata keçirilmiş tədbirlərin uyğunluğun dəyərləndirilməsidir. Hesabat vəziyyətin təsviri və tənqidi təhlildən ibarətdir. Nəticə GRECO tərəfindən Azərbaycan Respublikasına nəzərdən keçirilən məsələlər üzrə uyğunluğun inkişaf etdirilməsi üçün tövsiyələr siyahısını ehtiva edir.

6. Mövzu II – Siyasi partiyaların maliyyələşməsi barədə Hesabat GRECO III raund Dəyərləndirmə Hesabatı (2010) 2E, Mövzu II də nəzərdə tutulmuşdur.

## II KRIMINALLAŞDIRMA

### Vəziyyətin təsviri

7. Azərbaycan Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyanı (ETS 173) 11 fevral 2004-cü il tarixdə ratifikasiya etmişdir və Azərbaycan üzrə Konvensiya 1 iyun 2004-cü il tarixdə qüvvəyə minmişdir. Azərbaycan Respublikası Konvensiyanın 5-ci (xarici vəzifəli şəxslərin passiv rüşvətlə ələ alınması), 6-cı (xarici dövlətlərin seçkili orqanlarının üzvlərinin aktiv və ya passiv rüşvətlə ələ alınması), 10-cu (beynəlxalq parlament assambleyası üzvlərinin aktiv və ya passiv rüşvətlə ələ alınması) və 12-ci (aktiv və ya passiv nüfuz alveri) maddələrinə qeyd-şərt irəli sürmüşdür[1]. Bu qeyd-şərtlər 2004-cü ilin iyun ayında 3 il müddətinə edilmiş və ən son 2010-cu ilin 1 iyun tarixində 2013-cü ilin 1 iyun tarixinə kimə uzadılmışdır. Konvensiyanın ərazi tətbiqinə münasibətdə Azərbaycan Respublikası bəyan etmişdir ki, Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilər azad edilməyənə qədər həmin ərazilərdə Konvensiyanın tətbiqi mümkün deyildir. Konvensiyaya Əlavə Protokol (ETS 191) Azərbaycan Respublikası tərəfindən hələ imzalanmamışdır.

8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (bundan sonra Cinayət Məcəlləsi) 2000-ci ilin 1 sentyabr tarixində qüvvəyə minmişdir. Korrupsiya ilə əlaqədar normalar 2006-cı ilin hüquqi dəyişiklərinə səbəb olmuşdur ki[2], bu da qanunvericiliyin Korrupsiyaya ilə cinayət məsuliyyəti haqqında Konvensiyanın tələblərinə uyğunlaşdırılması ilə əlaqədar olmuşdur. Bu dəyişikliklər aktiv və passiv rüşvətlə ələ almanın yenidən müəyyən edilməsi, vəzifəli şəxs anlayışına dəyişikliklər, aktiv və passiv rüşvətlə ələ almaya görə cəzaların artırılması və nüfuz alverinin kriminallaşdırılması ilə əlaqədar olmuşdur.

### Milli vəzifəli şəxsin rüşvətlə ələ alınması (ETS 173-ün 1-3 və 19-cu maddələri)

9. Cinayət Məcəlləsinin 311-ci maddəsi passiv rüşvətlə ələ almaya, 312-ci maddəsi isə aktiv rüşvətlə ələ almaya görə cinayət məsuliyyəti müəyyən etmişdir. Hər iki maddə vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə və ya digər ağırlaşdırıcı hallara görə cəzaları artırır.

1.1.1. **Maddə 311. Rüşvət alma (passiv rüşvətxorluq)**

311.1. Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması —

- üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, əmlakı müsadirə

[1] Bax Əlavə A. – Əlavə olaraq Azərbaycan 26-cı maddənin 1-ci bəndinə münasibətdə qeyd-şərt etmişdir (qarşılıqlı hüquqi yardım).

[2] “Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Qanun 2 aprel 2006-cı ildə qəbul edilmiş və 31 may 2006-cı ildə qüvvəyə minmişdir.

olunmaqla dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.2. Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma—

- üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, əmlakı müsadirə olunmaqla beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.3. Bu Məcəllənin 311.1 və ya 311.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər:

311.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən;

3.11.3.2. təkrar törədildikdə;

311.3.3. külli miqdarda törədildikdə;

311.3.4. hədə-qorxu tətbiq olunmaqla törədildikdə—

- əmlakı müsadirə olunmaqla səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Qeyd:*** *Bu məcəllənin 311.3.3-cü maddəsində «külli miqdar» dedikdə, beş min manatdan artıq olan məbləğ başa düşülür.*

**Maddə 312. Rüşvət vermə (aktiv rüşvətxorluq)**

312.1. Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt verilməsi —

- min manatdan iki min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

312.2. Vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə—

- iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Qeyd:*** *Rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir.*

**<u>Cinayətin elementləri</u>**

“Milli vəzifəli şəxslər”

10. Rüşvətlə ələ alma normaları “vəzifəli şəxs” anlayışına istinad edir ki, bu da Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində öz əksini tapmışdır. Səlahiyyətli şəxslər izah edirlər ki, bu qeyd Cinayət Məcəlləsinin başqa hissələri ilə eyni hüquqi qüvvəyə malikdir.

> **Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsi:**
>
> *1. Bu <u>fəslin</u> (qeyd – o cümlədən 311 və 312-ci) maddələrində vəzifəli şəxslər dedikdə daimi, müvəqqəti olaraq və ya xüsusi səlahiyyət üzrə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər, beynəlxalq təşkilatların nümayəndələri, habelə **«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun** məqsədi üçün vəzifəli şəxs hesab edilən digər şəxslər başa düşülür.*
>
> *2. Vəzifəli şəxslər sırasına daxil olmayan dövlət qulluqçuları və yerli özünüidarə orqanlarının, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarının qulluqçuları müvafiq maddələrlə xüsusi olaraq nəzərdə tutulmuş hallarda bu fəslin maddələri ilə cinayət məsuliyyəti daşıyırlar.*

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanununun 2-ci maddəsinə (*Korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri)* əsasən:

2.1. Aşağıdakı şəxslər korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləridirlər;
2.1.1 Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş şəxslər;
2.1.2 xüsusi səlahiyyət əsasında dövlət orqanlarını təmsil edən şəxslər;
2.1.3 inzibati vəzifə tutan dövlət qulluqçuları;
2.1.4 dövlət orqanlarının müvafiq struktur vahidlərində, dövlət idarə, müəssisə və təşkilatlarında, habelə dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərində təşkilati-sərancamverici və ya inzibati təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;
2.1.5 Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər;
2.1.6 Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər;
2.1.7 yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;
2.1.8 qanunla müəyyən edilmiş hallarda dövlət orqanlarının səlahiyyətlərini yerinə yetirən qeyri-dövlət orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;
2.1.9 öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə edən şəxslər;
2.1.10 vəzifəli şəxsə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif edən və ya vəd edən, yaxud verən fiziki və hüquqi şəxslər və ya belə hərəkətlərdə vasitəçilik etmiş şəxslər;

2.2 Bu Qanunun 2.1.1-2.1.8-ci maddələrində göstərilənlər bu Qanunun məqsədi üçün vəzifəli şəxs hesab edilirlər.

12. Səlahiyyətli şəxslər bildirirlər ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində müəyyən edilmiş "vəzifəli şəxs" anlayışı habelə, nazir və icra hakimiyyətinin başçılarını, hakim və prokurorları da əhatə edir. Onlar izah edirlər ki, halbuki bu anlayış dövlət qulluğu haqqında qanunvericilikdə nəzərdə tutulan, xüsusilə də dövlət qulluqçusu adlanan və yardımçı vəzifə tutan, habelə bələdiyyə qulluqçularının da daxil olduğu vəzifəli şəxslərin bütün kateqoriyalarını əhatə etmir. Səlahiyyətli şəxslərin dediyinə görə bu kimi şəxslər rüşvətlə ələ alma cinayətlərinə görə cəzalandırıla bilməsələr də köməkçi, təhrikçi və ya təşkilatçı kimi (Cinayət Məcəlləsinin 31 və 32-ci maddələrin həmin məcəllənin 311-ci maddəsi ilə əlaqədə), habelə Cinayət Məcəlləsinin digər maddələri ilə (məsələn cinayət məcəlləsinin 178 - dələduzluq və ya 179 - mənimsəmə maddələri ilə) cəzalandırıla bilərlər.

«Tələb və ya təklifin və ya vədin qəbul edilməsi" (passiv rüşvətlə ələ alma)

13. Cinayət Məcəlləsinin 311-ci maddəsi «tələb» və «qəbul etmə» anlayışlarını işlədir. Əlavə olaraq bu norma «ümumi himayədarlıq və ya laqeydlik» alternativ anlayışlarından da istifadə edir ki, bu da rüşvət alan və ya rüşvət verən şəxsin xidməti asılılıq vəziyyətlərinə aid edilir və xidməti vəzifələrin konkret icrası və ya icrasından çəkinmə ilə əlaqədar deyildir. «Təklif və ya vədin qəbul edilməsi» barədə səlahiyyətli şəxslər bildirirlər ki, bu cür hərəkətlər cinayət məcəlləsinin 28 və ya 29-cu maddələri ilə əlaqədə CM-nin 311-ci maddəsinə əsasən cinayətə hazırlıq və ya cinayətə cəhd kimi cəzalandırıla bilər. Bu iddianı təsdiq edən məhkəmə qərarı və ya presedent yoxdur. Həmçinin qeyd edilməlidir ki, cinayətə hazırlıq yalnız ağır və ya xüsusilə ağır cinayətlərdə kriminallaşdırılmışdır. Bu Məcəllə ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər ağır cinayətlər hesab olunur. Ona görə də Cinayət Məcəlləsinin 28-ci maddəsi həmin Məcəllənin 311-ci maddəsi və 312-ci maddəsinin 2-ci bəndinə tətbiq edilə bilər, lakin nə 312-ci maddənin 1-ci hissəsinə, nə də nüfuz alveri cinayətinə tətbiq edilə bilməz. Başa çatmayan cinayətlərə görə cinayət məsuliyyəti Cinayət Məcəlləsinin başa çatmış cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələrinə uyğun olaraq müəyyən edilir, lakin 63-cü maddəyə əsasən cəzaların maksimum hədləri məhdudlaşdırılıb. Cinayətə hazırlığa görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından çox ola bilməz. Cinayət etməyə cəhdə görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz. Cinayət Məcəlləsinin 30-cu maddəsinə əsasən cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur.

**Maddə 28. Cinayətə hazırlıq**

28.1. Cinayət törətmək üçün vasitə və ya alət axtarma, əldə etmə və ya hazırlama, yaxud cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə, sövdələşmə və yaxud cinayət törətmək üçün qəsdən başqa cür şərait yaratma zamanı cinayət şəxsin iradəsindən asılı olmayaraq başa çatdırılmamışdırsa, belə əməllər cinayətə hazırlıq hesab olunur.

28.2. Yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur.

**Maddə 29. Cinayət etməyə cəhd**

Bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməl (hərəkət və ya hərəkətsizlik), şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, cinayət etməyə cəhd hesab olunur.

**Maddə 30. Cinayət törətməkdən könüllü imtina etmə**

30.1. Cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən şəxs tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəldilmiş əməlin (hərəkət və ya hərəkətsizliyin) dayandırılması, cinayəti törətməkdən könüllü imtina etmə sayılır.

30.2. Cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur.

30.3. Cinayəti başa çatdırmaqdan könüllü imtina edən şəxs yalnız o halda cinayət məsuliyyətinə cəlb olunur ki, onun törətdiyi əməldə başqa bir cinayətin tərkibi olsun.

(....)

“Vəd vermə, təklif etmə və ya vermə” (aktiv rüşvətlə ələ alma)

14. Cinayət Məcəlləsinin 312-ci maddəsi “vermək” anlayışından istifadə edir. “Təklif” və ya “vəd vermə” barədə səlahiyyətli şəxslər bildirirlər ki, cinayətə cəhd və ya cinayətə hazırlıq kimi Cinayət Məcəlləsinin 28 və ya 29-cu maddəsi ilə həmin Məcəllənin 311-ci maddəsi ilə əlaqədə olmaqla cəzalandırılır.

“Hər hansı qanunsuz üstünlük”

15. “Hər hansı qanunsuz üstünlük” anlayışı aktiv və passiv rüşvətlə ələ alma normalarında “hər hansı maddi və ya sair nemət, imtiyaz və ya güzəşt” anlayışı kimi istifadə olunmuşdur. “Qanunsuz” elementi birbaşa istifadə edilməmişdir. Qeyd edilməlidir ki, dövlət qulluqçularına və seçilmiş / təyin edilmiş vəzifəli şəxslərə aid olan və hədiyyələr barədə ümumi normaları müəyyən edən “Korrupsiyaya qarşı mübarizə haqqında” qanunun 8-ci maddəsi vəzifəli şəxs tərəfindən hədiyyə qəbul edilməsini məhdudlaşdırır. Bu normaya müvafiq olaraq, vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bunun əksinə olaraq, vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Səlahiyyətli şəxslər izah edirlər ki, bu kimi xırda hədiyyələr vəzifəli şəxsin xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələr istisna olmaqla rüşvətlə ələ alma cinayətinin tərkibini yaratmır.

“Birbaşa və ya dolayı”

16. Cinayət Məcəlləsinin 311 və 312-ci maddələri dəqiq müəyyən edir ki, aktiv və ya passiv rüşvətlə ələ alma “birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə” törədilə bilər.

“Özü üçün və ya hər hansı başqa şəxs üçün”

17. Aktiv və ya passiv rüşvətlə ələ alma cinayətlərini müəyyən edən normalar “özü və ya üçüncü şəxs üçün” anlayışlarından istifadə edir. Səlahiyyətli şəxslər izah edirlər ki, “üçüncü şəxs” anlayışı həm fiziki, həm də hüquqi şəxsləri əhatə edir.

“Öz xidməti vəzifələrini icra etmə və ya icra etməkdən çəkinmə”

18. Qanunvericilik vəzifəli şəxsin öz xidməti vəzifələrini icra etmə və ya icra etməkdən çəkinmənin qanuni və qanunsuz hallarını əhatə edir. Səlahiyyətli şəxslər izah edirlər ki, “vəzifə öhdəlikləri” qanunla müəyyən edilmiş və əmək müqaviləsində nəzərdə tutulmuş öhdəliklər kimi başa düşülməlidir.

“Qəsdən törədilmiş”

19. Səlahiyyətli şəxslər Qrup ekspertlərinə izah etmişlər ki, həm aktiv, həm də passiv rüşvətlə ələ alma yalnız qəsdən törədilə bilər.

**Sanksiyalar.**

20. Passiv rüşvətlə ələ alma üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, əmlakı müsadirə olunmaqla dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Səlahiyyətli şəxslər izah edirlər ki, bu sanksiyalar məcburi qaydada müəyyən edilmişdir. Əgər bu cinayət qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, təkrar törədildikdə, külli miqdarda törədildikdə və ya hədə-qorxu tətbiq olunmaqla törədildikdə əmlakı müsadirə olunmaqla səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu hallarda müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmək cəzası müəyyən edilməmişdir. Aktiv rüşvətlə ələ alma min manatdan iki min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Əgər bu cinayət vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə əlamətləri ilə törədilsə onda iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

21. Xatırladılmalıdır ki, yalnız rüşvət tələb etmə və ya qəbul etmə və ya vermə bitmiş cinayət tərkibini müəyyən edir. Bunun əksinə olaraq, təklif və ya vəd səlahiyyətli şəxslərin izahına əsasən cinayət hazırlıq və ya cəhd kimi cəzalandırılır. Bu hallarda maksimum sanksiyalar məhdudlaşdırılır. Yuxarıda ətraflı göstərildiyi kimi cinayətə hazırlığa görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından çox ola bilməz. Cinayət etməyə cəhdə görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz.

22. Cinayət Məcəlləsinin 58-ci maddəsinə əsasən, cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır. Cəzanı ağırlaşdıran və ya yüngülləşdirən hallar Cinayət Məcəlləsinin 58 və 59-cu maddələrində nəzərdə tutulmuşdur.

23. Oxşar sanksiyalar digər müqayisə edilə bilən cinayətlərdə də nəzərdə tutulmuşdur (dələduzluq, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı və sair).

**Milli seçkili orqanların üzvlərinin rüşvətlə ələ alınması (ETS 173 maddə 4)**

24. Milli seçkili orqanların üzvlərinin rüşvətlə ələ alınması səlahiyyətli şəxslərin izahına əsasən milli qanunvericiliklə cinayət əməli sayılır. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsinə əsasən milli seçkili orqanların üzvləri də, milli vəzifəli şəxslərin rüşvətlə aktiv və ya passiv ələ alınmasına görə nəzərdə tutulmuş məsuliyyəti eyni qaydada daşıyırlar. Belə ki, "Korrupsiyaya qarşı mübarizə" haqqında qanunun 2-ci maddəsinə əsasən "Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş şəxslər", "xüsusi səlahiyyət əsasında dövlət orqanlarını təmsil edən şəxslər" və "Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər" vəzifəli şəxs anlayışına daxildirlər. Milli seçkili orqanların üzvlərinin rüşvətlə ələ alınması milli vəzifəli şəxslərin rüşvətlə aktiv və ya passiv ələ alınmasına görə nəzərdə tutulmuş məsuliyyəti eyni qaydada daşıyırlar. Milli seçkili orqanların üzvlərinin rüşvətlə ələ alınması ilə əlaqədar məhkəmə hökmü və ya presedent hüququ yoxdur.

**Xarici vəzifəli şəxslərin rüşvətlə ələ alınması (ETS 173 maddə 5)**

25. Xarici vəzifəli şəxslərin nə aktiv, nə də passiv rüşvətlə ələ alınması milli qanunvericiliklə cinayət əməli sayılmır və Azərbaycan Respublikası yuxarıda qeyd edilən maddəyə Konvensiyanın 37-ci maddəsində nəzərdə tutulduğu kimi xarici vəzifəli şəxslərin rüşvətlə passiv ələ alınması ilə əlaqədar qeyd-şərt etmişdir.

**Xarici dövlətlərin seçkili orqanları üzvlərinin rüşvətlə ələ alınması (ETS 173 maddə 6)**

26. Xarici dövlətlərin seçkili orqanları üzvlərinin nə aktiv, nə də passiv rüşvətlə ələ alınması milli qanunvericiliklə cinayət əməli sayılmır və Azərbaycan Respublikası xarici vəzifəli şəxslərin rüşvətlə passiv ələ alınması ilə əlaqədar qeyd-şərt etmişdir.

**Özəl sektorda rüşvətlə ələ alma (ETS 173 maddə 7 və 8)**

27. 2006-cı ildə edilmiş dəyişikliyə əsasən Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində müəyyən edilmiş "vəzifəli şəxs" anlayışı "daimi, müvəqqəti olaraq və ya xüsusi səlahiyyət üzrə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər"i də əhatə edir. Səlahiyyətli şəxslərin izahına əsasən ona görə də özəl sektor təşkilatlarının adından çıxış edən şəxslər Cinayət Məcəlləsinin 311 və 312-ci

maddələrinə əsasən rüşvətlə ələ almaya görə məhkum edilə bilərlər. Onlar özəl sektorun vəzifəli şəxslərinin Cinayət Məcəlləsinin 33-cü fəslinin müddəalarında təsbit edilmiş cinayət əməllərinə görə ittiham edilməsi üzrə statistikaya istinad edirlər (məsələn 2009-cu ildə özəl sektordan 55 şəxs ittiham edilmişdir); bu cinayət əməlləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və ya aşma, qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və bir halda passiv rüşvətlə ələ alma.

Cinayətin elementləri

28. Səlahiyyətli şəxslərin izahına əsasən milli vəzifəli şəxslərin rüşvətlə ələ alınmasında nəzərdə tutulan elementlər habelə özəl sektorda rüşvətlə ələ almaya tətbiq edilir.

*"Özəl sektorun müəssisələrinə rəhbərlik edən və ya onlarda bu və ya digər vəzifədə işləyən hər hansı bir şəxslər"*

29. Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsi "kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər" anlayışından istifadə edir. Səlahiyyətli şəxslər izah edirlər ki, "təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyaları" dedikdə ancaq o şəxslər başa düşülür ki, "həmin şəxslər müxtəlif təşkilati strukturlarda işçi qruplarda idarəetmə funksiyalarını həyata keçirirlər və habelə istehsal fəaliyyəti və iqtisadi sahələri idarə edirlər". Səlahiyyətli şəxslər qeyd edirlər ki, bu funksiyalar işçilərin seçilməsi, təyin edilməsi və vəzifədən azad edilməsi, fəaliyyətin planlaşdırılması, intizama nəzarət və sair kimi tipik funksiyaları ehtiva edir. Bundan əlavə qeyd edilir ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsi hüquqi şəxs olmayan təşkilatları əhatə etmir.

*"İşgüzar aktivliyin gedişində"; "qulluq mövqeyinə zidd olaraq..."*

30. Özəl sektora tətbiq edilə bilən müddəalar "işgüzar aktivliyin gedişində" və "qulluq mövqeyinə zidd olaraq" anlayışlarından istifadə etmir. Qeyd edilməlidir ki, qanunsuz hərəkətsizlik və ya hərəkət zamanı vəzifəli şəxslər üçün sanksiyalar artırılmışdır.

Sanksiyalar

31. Milli vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına görə nəzərdə tutulmuş sanksiyalar habelə özəl sektorda törədilmiş rüşvətlə ələ alma cinayət əməllərinə tətbiq edilir.

**Beynəlxalq təşkilatların vəzifəli şəxslərinin rüşvətlə ələ alınması (ETS 173 maddə 9)**

32. 2006-cı ildə edilmiş dəyişikliyə əsasən Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində müəyyən edilmiş "vəzifəli şəxs" anlayışı "beynəlxalq təşkilatların nümayəndələri" anlayışını da əhatə etdiyinə görə beynəlxalq təşkilatların vəzifəli şəxslərinin rüşvətlə ələ alınması zamanı Cinayət Məcəlləsinin 311 və 312-ci maddələri tərəfindən ehtiva olunur. Səlahiyyətli şəxslər təsdiq edirlər ki, bu anlayış müqavilə əsasında işçiləri, ezam edilmiş personalı və vəzifəli şəxslər tərəfindən icra edilən müvafiq funksiyaları icra edən şəxsləri də əhatə etmək üçün kifayət qədər geniş anlayışdır. Milli vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına görə nəzərdə tutulmuş cinayətin elementləri və sanksiyalar habelə beynəlxalq təşkilatların vəzifəli şəxslərinin rüşvətlə ələ alınması cinayət əməllərinə tətbiq edilir. Beynəlxalq təşkilatların vəzifəli

şəxslərinin rüşvətlə ələ alınması ilə əlaqədar məhkəmə hökmü və ya presedent hüququ yoxdur.

**Beynəlxalq parlament assambleyaları üzvlərinin rüşvətlə ələ alınması (ETS 173 maddə 10)**

33. Azərbaycan Respublikası beynəlxalq parlament assambleyaları üzvlərinin rüşvətlə ələ alınması ilə əlaqədar qeyd-şərt etmişdir. Buna baxmayaraq səlahiyyətli şəxslər qeyd edirlər ki, bu şəxslərin rüşvətlə ələ alınmasının bir qismi qanunvericiliyə əsasən qismən əhatə olunur. Səlahiyyətli şəxslərin dediyinə əsasən, beynəlxalq parlament assambleyaları üzvlərinin rüşvətlə aktiv və ya passiv ələ alınması Cinayət Məcəlləsinin 311 və 312-ci maddələrinə əsasən kriminallaşdırılmış hesab oluna bilər, belə ki, beynəlxalq parlament assambleyaları üzvləri Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində nəzərdə tutulmuş "beynəlxalq təşkilatların nümayəndələri" anlayışına daxil edilə bilər. Səlahiyyətli şəxslər qeyd edirlər ki, milli vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına görə nəzərdə tutulmuş cinayətin elementləri və sanksiyalar habelə beynəlxalq parlament assambleyaları üzvlərinin rüşvətlə ələ alınması cinayət əməllərinə tətbiq edilir. Beynəlxalq parlament assambleyaları üzvlərinin rüşvətlə aktiv və ya passiv ələ alınması ilə bağlı hər hansı məhkəmə qərarı və presedent mövcud deyil.

**Beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə ələ alınması (ETS 173 maddə 11)**

34. Beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə aktiv və passiv ələ alınması Cinayət Məcəlləsinin 311 və 312-ci maddələrində aydın təsbit edilməmişdir. Buna baxmayaraq səlahiyyətli şəxslər qeyd edirlər ki, bu şəxslərin rüşvətlə ələ alınmasının bir qismi qanunvericiliyə əsasən qismən əhatə olunur. Səlahiyyətli şəxslərin dediyinə əsasən, beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə aktiv və passiv ələ alınması Cinayət Məcəlləsinin 311 və 312-ci maddələrinə əsasən kriminallaşdırılmış hesab oluna bilər, belə ki, beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxsləri Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində nəzərdə tutulmuş "beynəlxalq təşkilatların nümayəndələri" anlayışına daxil edilə bilər. Səlahiyyətli şəxslər qeyd edirlər ki, milli vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına görə nəzərdə tutulmuş cinayətin elementləri və sanksiyalar habelə beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə aktiv və passiv ələ alınması cinayət əməllərinə tətbiq edilir. Beynəlxalq məhkəmələrin hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə aktiv və passiv ələ alınması ilə bağlı hər hansı məhkəmə qərarı və presedent mövcud deyil.

**Nüfuz alveri (ETS 173 maddə 12)**

35. Azərbaycan Respublikası nüfuz alveri ilə əlaqədar qeyd-şərt etmişdir. Buna baxmayaraq 2006-cı ilin 31 may tarixində qüvvəyə minmiş dəyişikliklərə əsasən aktiv və ya passiv nüfuz alveri cinayət sayılır.

**Maddə 312-1. Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)**

312-1.1. Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək, vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması —

- üç min manatdan beş min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

312-1.2. Şəxsə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək, vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək üçün maddi və sair nemətin, imtiyazın və ya güzəştin verilməsi —

- min manatdan iki min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayətin elementləri

*"İddia və ya təsdiq edir ki, o milli vəzifəli şəxslərin qərarına qanunsuz təsir göstərə bilir"*

36. Bu anlayış Cinayət Məcəlləsinin 312-1-ci maddəsində "öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək, vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə" anlayışı ilə həyata keçirilmişdir. Səlahiyyətli şəxslər qeyd edirlər ki, bu halda təsirin həqiqətən həyata keçirilib-keçirilməməsi və ya arzu olunan nəticənin baş verib-verməməsinin əhəmiyyəti yoxdur.

*Digər təyinedici elementlər*

37. Rüşvətlə ələ alma cinayətlərinin təyinedici elementlərinin böyük hissəsi nüfuzla aktiv və ya passiv alver etməyə də tətbiq edilir. Buna baxmayaraq, nüfuz alveri cinayətinin dolayı yolla törədilməsi tənzim edilməmişdir və üçüncü şəxsin xeyrinə anlayışı ancaq passiv nüfuz alverində nəzərdə tutulmuşdur.

Sanksiyalar

38. Passiv nüfuz alveri üç min manatdan beş min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır. Aktiv nüfuz alveri min manatdan iki min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Yerli arbitrlərin rüşvətlə ələ alınması (ETS 191) və Xarici arbitrlərin rüşvətlə ələ alınması (ETS 191 maddə 4)**

39. Yerli və xarici arbitrlərin rüşvət yolu ilə ələ alınması Cinayət Məcəlləsinin 311 və 312-ci maddələri tərəfindən ehtiva edilmir.

**Yerli andlı iclasçının rüşvətlə ələ alınması (ETS 191) və Xarici andlı iclasçının rüşvətlə ələ alınması (ETS 191 maddə 6)**

40. Yerli və xarici andlı iclasçıların rüşvət yolu ilə ələ alınması Cinayət Məcəlləsinin 311 və 312-ci maddələri tərəfindən ehtiva edilmir.

**Digər məsələlər**

İştirakçılıq hərəkətləri

41. Yuxarıda sadalanan bütün cinayət əməllərinin törədilməsində köməkçilik və təhrikçiliyə görə cinayətin törədilməsində iştirakçılıq anlayışı altında cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Eyni sanksiyalar cinayət törədən şəxslə yanaşı cinayətin köməkçisinə və təhrikçisinə, habelə təşkilatçısına da tətbiq edilə bilər, amma məhkəmə cəzanı onların hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən asılı olaraq müəyyən etməlidir.

Yurisdiksiya

42. Cinayət Məcəlləsinin Ümumi hissəsinin bütün cinayət əməllərinə tətbiq edilə bilən müvafiq müddəalarına əsasən yurisdiksiya ilk növbədə Azərbaycan Respublikası ərazisində törədilmiş cinayət əməlləri üzərində müəyyən edilir (ərazi prinsipi), Cinayət Məcəlləsinin 11-ci maddəsinə müvafiq olaraq habelə Azərbaycan Respublikasının ərazisində başlamış və başa çatmış cinayətləri də əhatə edir.

**Maddə 11. Cinayət qanununun Azərbaycan Respublikası ərazisində törədilən cinayətlərə görə qüvvəsi**

11.1. Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxs bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir. Azərbaycan Respublikası ərazisində başlamış, yaxud davam etmiş və ya başa çatmış cinayət, Azərbaycan Respublikası ərazisində törədilmiş cinayət sayılır.

11.2. Azərbaycan Respublikasının ərazi sularında, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, Azərbaycan Respublikasının üzərindəki hava məkanında və iqtisadi zonasında törədilən cinayət Azərbaycan Respublikası ərazisində törədilmiş cinayət sayılır.

11.3. Azərbaycan Respublikasının hava və ya dəniz limanında qeydiyyatda olan, Azərbaycan Respublikasının bayrağı və ya tanınma nişanı altında Azərbaycan Respublikasının hüdudlarından kənarda açıq sularda və ya hava fəzasında hərəkət edən su və ya hava gəmisində cinayət törətmiş şəxs bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir.

11.4. Azərbaycan Respublikasının hərbi donanmasına və ya hərbi hava qüvvələrinə məxsus olan gəmidə cinayət törətmiş şəxs, həmin gəminin olduğu yerdən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir.

11.5. Azərbaycan Respublikası ərazisində cinayət törətmiş xarici dövlətlərin diplomatik nümayəndələrinin və toxunulmazlıq hüququna malik olan digər şəxslərin cinayət məsuliyyəti haqqında məsələ beynəlxalq hüquq normalarına uyğun olaraq həll edilir.

43. Xaricdə törədilmiş cinayətlərə münasibətdə Cinayət Məcəlləsinin 12-ci maddəsinin 1-ci bəndi müəyyən edir ki, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan

Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa (ikili kriminallıq tələbi) cinayət məsuliyyətinə cəlb edilirlər. Bu halda Azərbaycan məhkəmələri tərəfindən təyin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz. Bununla əlaqədar səlahiyyətli şəxslər qeyd etmişlər ki, dövlət qulluqçuları, hakimlər, prokurorlar, parlament üzvləri və seçkili vəzifəli şəxslər Azərbaycan Respublikasının vətəndaşlığına malik olmalıdır. Bundan əlavə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdikləri halda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda və bu cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilə bilərlər. (Səlahiyyətli şəxslər bildirirlər ki, bunlar korrupsiya cinayətlərinə də aiddir).

**Maddə 12. Cinayət qanununun Azərbaycan Respublikası ərazisindən kənarda törədilən cinayətlərə görə qüvvəsi**

12.1. Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

12.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdikləri halda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda və bu cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

12.3. Sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, insan alveri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır.

12.4. Sülhməramlı hərbi birləşmələrin tərkibinə daxil olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinə mənsub hərbi hissələrin hərbi qulluqçuları Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri cinayətə görə, Azərbaycan

Respublikasının beynəlxalq müqavilələri ilə başqa hal nəzərdə tutulmamışsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

12.5. Bu Məcəllənin 12.1—12.4-cü maddələrində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz.

Müddətlər

44. Cinayət məsuliyyətinə cəlbetmə müddətləri cinayətlərin təsnifatına əsasən müəyyən edilir – böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və ya xüsusilə ağır. Bu əsasla da rüşvətlə passiv ələ alma (maddə 311.1-311.3) və bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə rüşvət vermə və ya təkrar rüşvət vermə (maddə 312.2) rüşvətlə aktiv ələ alma cinayətlərinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti 12 ildir. Qanuni hərəkət və ya hərəkətsizliyə görə rüşvətlə aktiv ələ alma (312.1) və nüfuz alveri cinayətlərinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti 7 ildir.

Müdafiələr

45. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeyd hissəsinə əsasən rüşvətlə aktiv ələ alma cinayəti üçün xüsusi müdafiə mövcuddur.

***Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeydi:***

*Rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir.*

Səlahiyyətli şəxslər izah edirlər ki, bu müdafiədən yararlanmaq üçün məlumat vermə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və ya Vergilər Nazirliyi kimi müvafiq hüquq mühafizə orqanlarına verilməlidir. Səlahiyyətli orqanların bu barədə artıq məlumatı olduğu halda rüşvət verən şəxs yalnız bu hal ona məlum olmadıqda cinayət məsuliyyətindən azad edilir. Cinayət məsuliyyətindən azad edilmə prokuror tərəfindən həll edilir. Əgər müdafiə uğurla həyata keçirilmişdirsə, o zaman rüşvət verən şəxsin barəsində cinayət işinin məhkəməyə göndərilməsinə ehtiyac yoxdur.

Statistika

46. Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsindən təqdim edilmiş statistikaya əsasən 2005-2010-cu illərdə 34 şəxs Cinayət Məcəlləsinin 311-ci maddəsi ilə (passiv rüşvətxorluq; 1 cinayət işi özəl sektorda passiv rüşvətlə ələ alma ilə əlaqədar), 9 şəxs 312-ci maddə ilə (aktiv rüşvətxorluq) və 5 şəxs 312-1-ci maddəsi (nüfuz alveri) ilə ittiham edilmişdir.

47. 2005-2010-cu illərdə məhkəmə hökmlərinə müvafiq olaraq 34 təqsirləndirilən şəxsdən 29-u passiv rüşvətxorluğa görə məhkum edilmişlər (onlardan 28-i azadlıqdan məhrum etmə cəzası ilə) və digər 5 şəxsin barəsində məhkəmə prosesi hələ başa çatmamışdır. Eyni dövr ərzində aktiv rüşvətxorluğa görə 9 təqsirləndirilən şəxsdən 5-i

məhkum edilmişdir (onlardan 3-ü azadlıqdan məhrum etmə cəzası ilə) və digər 4 şəxsin barəsində məhkəmə prosesi hələ başa çatmamışdır. Bundan əlavə, nüfuz alverinə görə 5 şəxs məhkum edilmişdir (onlardan 3-ü azadlıqdan məhrum etmə cəzası ilə). Özəl sektorda rüşvətxorluqla əlaqədar yekun məhkəmə hökmü yoxdur. Belə ki, passiv rüşvətxorluqla ittiham edilərək məhkəmə göndərilmiş yeganə 1 cinayət işi üzrə ittiham Apelyasiya Məhkəməsinin qərarı əsasında dələduzluğa tövsif edilmişdir.

48. Yekun olaraq, təqdim olunmuş statistika göstərir ki, 2005-2010-cu illərdə passiv rüşvətxorluqla bağlı cinayət işlərinin tərkibində xüsusi müdafiənin (312-ci maddənin qeyd hissəsi) tətbiq edilməsi yolu ilə 12 şəxs barəsində işlərə xitam verilmişdir.

## IV TƏHLİL

49. Cinayət Məcəlləsinin korrupsiya ilə əlaqədar müddəalarına milli qanunvericiliyin Azərbaycan Respublikasına münasibətdə 2004-cü ilin iyun ayında qüvvəyə minmiş Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti barədə Konvensiyanın standartlarına uyğunlaşdırılması məqsədi ilə 2006-cı ilin may ayında dəyişikliklər edilmişdir. Aktiv rüşvətxorluq (maddə 312) və passiv rüşvətxorluq (maddə 311) maddələri yenidən müəyyən edilmiş, vəzifəli şəxs anlayışı daha da genişləndirilmiş ki, xüsusi olaraq beynəlxalq təşkilatların vəzifəli şəxslərinin və müəyyən özəl sektor qurumlarında işləyən şəxsləri əhatə etsin, aktiv və passiv rüşvətxorluğa görə sanksiyalar artırılmış və nüfuz alveri kriminallaşdırılmışdır. Bu təqdirəlayiq səylərə baxmayaraq, həll edilməli olan bir sıra əsas çatışmazlıqlar qalmaqda davam edir ki, bu da aşağıda təsvir olunacaq. Bu kontekstdə GDQ üçün Cinayət Məcəlləsinə düzəlişlərin hazırlıq mərhələsində olduğunu və bu çərçivədə korrupsiya qanunvericiliyinin necə inkişaf etdirilməsi mümkünlüyünü öyrənmək maraqlı olmuşdur.

50. GDQ səfər ərzində müzakirələr zamanı məlumat verilmişdir ki, hökumət daxilində Konvensiyanın 5-ci (xarici vəzifəli şəxslərin rüşvətlə passiv ələ alınması), 6-cı (xarici seçkili orqanların rüşvətlə ələ alınması), 10-cu (beynəlxalq parlament assambleyası üzvlərinin rüşvətlə ələ alınması) və 12-ci (nüfuz alveri) maddələrinə edilmiş qeyd-şərtlərin ehtiyac olmadığı üçün geri götürülməsi və ya yenilənməməsi və Konvensiyaya Əlavə Protokolun imzalanması barədə müzakirələr həyata keçirilmişdir. GDQ bu kimi səyləri dəstəkləyir. Amma buna baxmayaraq qeyd edilməlidir ki, Azərbaycan qeyd-şərtlərinin 1 iyun 2010-cu il tarixdən 3 il müddətinə yəni 1 iyun 2013-cü il tarixə kimi uzatmışdır və Azərbaycan Respublikası GRECO-ya üzv dövlətlər arasında Konvensiyaya ən çox qeyd-şərt irəli sürmüş dövlətlər sırasındadır. GDQ təəssüf edir ki, Azərbaycan üzrə Konvensiyanın qüvvəyə minməsindən 6 il müddət keçsə də heç bir açıq səbəb olmadan bu sahədə heç bir inkişafa nail olunmamışdır və Qrup bu cür vəziyyətin Konvensiya tərəfindən yaradılmış standartların hərtərəfli həyata keçirilməsinə əhəmiyyətli dərəcədə ziyan vuracağından narahatdır.

51. Əlavə olaraq, GDQ vurğulamaq istəyir ki, praktiki implementasiyanın səmərəli olması üçün konkret tədbirlər vasitəsi ilə bir sıra zəruri hüquqi islahatlar həyata keçirilməlidir. Bununla əlaqədar olaraq GDQ Azərbaycanın korrupsiyaya əhəmiyyətli dərəcədə məruz qalması barədə geniş yayılmış fikirlərin olmasına baxmayaraq rüşvətlə ələ alma və nüfuz alveri normalarının nadir hallarda tətbiq olunması ilə bağlı yerlərdə keçirilmiş görüşlərdə bəzi həmsöhbətlər tərəfindən ifadə edilmiş narahatlığı bölüşür. Bununla əlaqədar, səlahiyyətli şəxslər o faktı qeyd edirlər ki, “korrupsiya”

anlayışının Azərbaycan hüquq sistemi çərçivəsindəki mənasına vəzifə səlahiyyətlərini aşma, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə saxtakarlığı kimi digər əlaqəli cinayətləri də əhatə edir və 2005-ci ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi yarandığı vaxtdan aparılmış cinayət işlərinin sayı artmışdır (məsələn 2005-ci ildə 35 şəxsdən fərqli olaraq 2009-cu ildə 176 şəxs korrupsiya ilə əlaqədar cinayət işləri üzrə ittiham olunmuşlar). Buna baxmayaraq, GDQ narahatlıq keçirir ki, 2005-2010-cu il tarixlərdə yalnız 5 şəxs aktiv rüşvətxorluğa görə, 29 şəxs passiv rüşvətxorluğa görə və 5 nəfər nüfuz alveri cinayətinə görə ittiham olunmuşdur və bu göstərir ki, aşağıda tövsiyə edilmiş qanunvericiliyə gələcək dəyişikliklər mühüm olsa da, özü-özlüyündə korrupsiyaya qarşı mübarizəyə əhəmiyyətli yardım olmayacaq.

52. Cinayət qanunvericiliyinə gəldikdə GDQ qeyd edir ki, "vəzifəli şəxs" anlayışı korrupsiya cinayət əməllərini törətməsi mümkün olan şəxsləri müəyyən edir. Bu termin səlahiyyətli şəxslərin dediyinə əsasən Cinayət Məcəlləsinin digər hissələri ilə eyni hüquqi qüvvəyə malik olan 308-ci maddəsinin qeyd hissəsi ilə müəyyən edilir. Bu anlayış "daimi, müvəqqəti olaraq və ya xüsusi səlahiyyət üzrə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər, beynəlxalq təşkilatların nümayəndələri, habelə «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun məqsədi üçün vəzifəli şəxs hesab edilən digər şəxsləri" əhatə edir. 2006-cı il düzəlişləri ilə təsbit olunmuş bu anlayışın ən son hissəsi «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş şəxslərin siyahısına istinad edir ki, bu siyahıya da xüsusi olaraq "dövlət orqanlarına və bələdiyyələrə təyin edilmiş və seçilmiş şəxslər", "inzibati vəzifə tutan dövlət qulluqçuları" və "dövlət və bələdiyyə orqanlarında təşkilatı və inzibati vəzifə tutan şəxslər" daxildir.

53. GDQ səlahiyyətli şəxslərin "vəzifəli şəxs" anlayışının dəyişiklik edilmiş formada merləri, nazirləri, hakimləri, prokurorları, habelə Parlament və bələdiyyə üzvlərini əhatə etməsi barədə izahatları ilə qane olur. Buna baxmayaraq, Cinayət Məcəlləsinin bir sıra müddəaları aydın şəkildə göstərir ki, dövlət qulluqçularının bəzi kateqoriyaları və yerli hakimiyyət orqanları institutlarının bəzi işçiləri bu anlayış tərəfindən ehtiva olunmur. Səlahiyyətli şəxslər və digər həmsöhbətlər bunu təsdiq edirlər və bildirirlər ki, "dövlət qulluqçusu" anlayışı qanunvericilikdə nəzərdə tutulmuş mənasında "vəzifəli şəxs" anlayışından daha genişdir, belə ki, ona həm də sürücü, makinaçı, arxivçi və sair kimi köməkçi vəzifələr də daxildir. GDQ başa düşmüşdür ki, bu tip dövlət qulluqçuları, habelə təşkilat-sərəncamverici və inzibati-sərəncamverici funksiyası olmayan şəxslər vəzifəli şəxs anlayışa daxil deyillər və ona görə də rüşvətlə ələ alma cinayətlərinə görə cinayət məsuliyyətinin subyekti deyillər. Səlahiyyətli şəxslər izah edirlər ki, bu cür şəxslər şəraitdən asılı olaraq cinayətin iştirakçısı kimi köməkçi, təhrikçi və ya təşkilatçı qismində və ya dələduzluq və ya mənimsəmə cinayətlərinə görə məsuliyyətə cəlb edilə bilərlər. Buna baxmayaraq, GDQ çox böyük şübhə edir ki, bu xatırladılan müddəalar Konvensiyanın 2 və 3-cü maddələrində nəzərdə tutulmuş bütün rüşvətlə ələ alma cinayətləri yuxarıda xatırladılan maddələrlə əhatə oluna bilər, məsələn köməkçi vəzifəsi tutan dövlət qulluqçusu uğursuz olaraq rüşvət tələb edir və prinsipcə rüşvət cinayətini törətmiş şəxs yoxdur. Konvensiyanın 1(a) maddəsinin vəzifəli şəxsin müstəqil anlayışını müəyyən etməməsinə baxmayaraq GDQ dövlət qulluqçularının və dövlət qulluğundakı digər işçilərin önəmli bir hissəsinin cəzadan kənarda qalmasından və keçən illər ərzində rüşvətlə ələ alma ilə bağlı çox az cinayət işinin məhkəməyə göndərilməsindən narahatdır. Ona görə də GDQ **dövlət qulluğu haqqında**

**qanunvericilikdə nəzərdə tutulmuş dövlət qulluqçularının bütün kateqoriyaları və idarəetmə və ya təşkilatı funksiyaları olmayan dövlət qulluqçuları da daxil olmaqla mərkəzi və yerli səviyyədə vəzifəli şəxslərin bütün kateqoriyalarının rüşvətlə ələ alınmasının kriminallaşdırılması üçün bütün zəruri qanunvericilik tədbirlərinin görülməsini tövsiyə edir.**

54. Rüşvətlə ələ alma cinayətlərinin beynəlxalq ölçüsünə gəldikdə isə, GDQ qeyd edir ki, vəzifəli şəxsin yuxarıda müəyyən edilmiş anlayışına dəyişiklik edilmiş və bura "beynəlxalq təşkilatların nümayəndələri" də daxil edilmişdir. Buna baxmayaraq, Konvensiyanın standartları ilə münasibətdə bir sıra əhəmiyyətli çatışmazlıqlar qalmaqda davam edir. Birincisi, Konvensiyanın 5 və 6-ci maddələrində nəzərdə tutulmuş xarici vəzifəli şəxslər və xarici seçkili orqanların üzvləri nəzərdə tutulmamışdır və ona görə də rüşvətlə ələ alma müddəaları tərəfindən əhatə olunmur. İkincisi, belə məlum olur ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində nəzərdə tutulmuş "beynəlxalq təşkilatın nümayəndəsi" anlayışı Konvensiyanın 9-cu maddəsində nəzərdə tutulmuş "beynəlxalq təşkilatın hər hansı vəzifəli şəxsi və ya digər işçisi" anlayışından daha məhduddur. GDQ ilə görüşən həmsöhbətlərin böyük hissəsi bildirmişlər ki, "beynəlxalq təşkilatın nümayəndəsi" anlayışı təşkilatın adından danışmaq və ya hərəkət etmək səlahiyyətinə malik olan şəxsləri ehtiva edir. Digər köməkçi və məşvərətçi xarakterli kimi işçilər ona görə də rüşvətlə ələ alma müddəalarının tənzimindən kənarda qalır. Bunun əksinə olaraq, Konvensiya belə bir məhdudiyyət müəyyən etmir. Üçüncüsü, GDQ inanmır ki, "beynəlxalq təşkilatın nümayəndəsi" anlayışı Konvensiyanın 10 və 11-ci maddələrinin tələblərinə müvafiq olaraq parlament assambleyası üzvlərini, beynəlxalq məhkəmələrin hakim və vəzifəli şəxslərini əhatə etmək üçün kifayət qədər genişdir (məsələn Avropa Şurası Parlament Assambleyasının üzvləri heç cür Avropa Şurasının nümayəndəsi kimi qiymətləndirilə bilməz). Nəticə kimi qeyd edilməlidir ki, Azərbaycan Konvensiyanın 5 (ancaq xarici vəzifəli şəxslərin passiv rüşvətlə ələ alınması barədə), 1 və 10-cu maddələrinə qeyd-şərt irəli sürmüş, lakin 11-ci maddəyə heç bir qeyd-şərt irəli sürməmişdir. Azərbaycan qeyd-şərtlərinin 1 iyun 2010-cu il tarixdən 3 il müddətinə yəni 1 iyun 2013-cü il tarixə kimi uzatmışdır, lakin GDQ -na səfər ərzində müzakirələr zamanı məlumat verilmişdir ki, hökumət daxilində edilmiş qeyd-şərtlərin ehtiyac olmadığı üçün geri götürülməsi və ya yenilənməməsi barədə müzakirələr həyata keçirilmişdir. GDQ bu səyləri dəstəkləyir. Yuxarıdakıları nəzərə alaraq, GDQ tövsiyə edir ki, **(i) Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq xarici vəzifəli şəxslərin rüşvətlə aktiv ələ alınması kriminallaşdırılsın; (ii) xarici vəzifəli şəxslərin passiv rüşvətlə ələ alınması, habelə xarici seçkili orqanların üzvlərinin aktiv və passiv rüşvətxorluğunun kriminallaşdırılması məsələsinə, habelə konvensiyanın bu maddələrinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın; (iii) Konvensiyanın 11-ci maddəsinə müvafiq olaraq beynəlxalq məhkəmələrin bütün hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə ələ alınması birmənalı olaraq kriminallaşdırılsın; və (iv) Konvensiyanın 9 və 10-cu maddələrinə müvafiq olaraq beynəlxalq təşkilatların və beynəlxalq parlament assambleyalarının bütün vəzifəli şəxslərinin rüşvətlə ələ alınmasının kriminallaşdırılmasını təmin etmək üçün bütün qanunvericilik tədbirlərinin görülməsi və habelə konvensiyanın bu maddələrinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın.**

55. GDQ qeyd edir ki, andlı iclasçılar və arbitrlər Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində nəzərdə tutulmamışdır və bu barədə hər hansı müvafiq məhkəmə qərarı yoxdur. Səlahiyyətli şəxslər bildirirlər ki, yerli və xarici andlı iclasçılar və arbitrlər "vəzifəli şəxs" anlayışına daxil deyillər. GDQ bu nöqteyi-nəzəri bölüşür və qeyd edir ki, Konvensiyaya Əlavə Protokol Azərbaycan Respublikası tərəfindən hələ

imzalanmamışdır və ratifikasiya edilməmişdir. Bununla əlaqədar, GDQ məmnun qalmışdır ki, hökumət daxilindən bu beynəlxalq sənədin imzalanması və qanunvericiliyin ona uyğunlaşdırılması barədə müzakirələr gedir. Bu səy dəstəklənir. GDQ vurğulamaq istəyir ki, andlı iclasçılar və arbitrlərin rüşvətlə ələ alınmasının birmənalı olaraq kriminallaşdırılması üçün aydın qanunvericiliyə ehtiyac olacaqdır. Nəticə etibarı ilə, GDQ tövsiyə edir ki, **Konvensiyaya Əlavə Protokol mümkün qədər tez bir müddətdə imzalanıb ratifikasiya edilsin və həmin Protokolun 2,3,4,5 və 6-cı maddələrinə uyğun olaraq yerli və xarici andlı iclasçı və arbitrlərin aktiv və passiv rüşvətlə ələ alınması kriminallaşdırılsın.**

56. <u>Korrupsiya xarakterli davranışın müxtəlif formalarına</u> gəldikdə, Cinayət Məcəlləsinin 312-ci maddəsi ancaq “vermək” terminindən, 311-ci maddə isə “tələb” və “qəbul etmə” terminlərindən istifadə edir. “Təklif” və “vəd”, habelə “təklifi və ya vədi qəbul etmə” elementləri ona görə də kənarda qalır. Səlahiyyətli şəxslər iddia edirlər ki, belə hərəkətlər Cinayət Məcəlləsinin 28/29-cu maddələri ilə əlaqədə 311/312-ci maddələrlə cinayətə hazırlıq və cinayət etməyə cəhd kimi (başa çatmamış cinayət) qiymətləndirilərək məsuliyyətə səbəb olur, amma bu iddianı təsdiq etmək üçün heç bir məhkəmə hökmü və ya presedent hüququ yoxdur. Təcrübəsi olan işçilər də səlahiyyətli şəxslərin mövqeyini paylaşırlar, lakin belə işlər barədə hesabat verə bilmirlər və onlardan bəziləri korrupsiya cinayətlərinin təqibinin asanlaşdırılması üçün bu elementləri normalara daxil edilməsini təklif etmişlər. GDQ-nun Cinayət Məcəlləsinin 28 və 29-cu maddələri ilə Konvensiyanın 2 və 3-cü maddələrinə müvafiq olaraq təklif, vəd, təklif və ya vədin qəbul edilməsinin adekvat olaraq kriminallaşdırılması barədə ciddi şübhələri mövcuddur. Xüsusilə də, bu müddəalara əsasən başa çatmayan bu cinayətlər ancaq o zaman cəzalandırılır ki, onlar “onu törədən şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmasın” və cinayəti törədən şəxs cinayət etməkdən könüllü imtina etməsin. Bu şərtlər şəxsin öz təklifini və ya vədini geri götürdüyü bütün hallarda yerinə yetirilmir. Məsələn təklif edilən şəxs tərəfindən hələ rədd edilməmiş halda. Bundan əlavə, qeyd edilməlidir ki, başa çatmayan cinayətlərə görə cəzaların maksimum həddi məhdudlaşdırılmışdır. Cinayətə hazırlığa görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından çox ola bilməz. Cinayət etməyə cəhdə görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz. GDQ -korrupsiya davranışının bir sıra əsas formalarında cəzaların əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasından narahatlıq keçirir. Bütövlükdə GDQ o fikirdədir ki, təklif, vəd, təklif və ya vədin qəbul edilməsi aydın kriminallaşdırılmalıdır ki, bu cür əməllərə də rüşvət tələb etmək, qəbul etmək və vermək üçün nəzərdə tutulmuş qaydalar tətbiq olunmaqla hüquqi boşluqları aradan qaldırsın. Bu əsas məsələdə rüşvətlə ələ almaya qarşı qanunvericilik birmənalı olmalıdır. Yuxarıda göstərilənləri nəzərə alaraq, GDQ tövsiyə edir ki, **aktiv və ya passiv rüşvətlə ələ alma cinayətində “təklif etmə”, “vəd vermə” və “təklif və ya vədin qəbul edilməsi” anlayışlarını daxil edilsin.**

57. <u>Rüşvətlə ələ alma müddəalarının digər elementləri</u> ilə əlaqədar Cinayət Məcəlləsinin 311 və 312-ci maddələrində aydın şəkildə göstərilmişdir ki, bu cinayətlər “birbaşa və ya dolayı, şəxsən və ya üçüncü şəxsin vasitəçiliyi ilə” törədilə bilər. Bundan əlavə, onlar müəyyən edirlər ki, vəzifəli şəxs imtiyaz və ya üstünlüyü “özü və ya üçüncü şəxslər” üçün qəbul edə və tələb edə bilər. Bununla yanaşı, hər iki maddə vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə həm qanuni, həm də hərəkət və ya hərəkətsizliklə törədilmiş cinayətləri əhatə edir. GDQ ilə görüşlərdə həmsöhbətlər razılaşmış və bildirmişlər ki, bu anlayış vəzifəli şəxs tərəfindən həm öz

qulluq səlahiyyətləri ilə bağlı, həm də o səlahiyyətlərdən kənara çıxan əməlləri əhatə etmək üçün kifayət qədər genişdir. Prinsipcə, belə hallar qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə tərkib yaradır və ağırlaşdırıcı hal kimi 311 və 312-ci maddələrin 2-ci hissələrinin təsiri altına düşür. GDQ qeyd edir ki, "vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar" termini Konvensiyanın 2 və 3-cü maddələrinin tələbləri ilə demək olar ki, eynidir və bu barədə əlavə izahata ehtiyac yoxdur. Son olaraq, rüşvətlə ələ almanın obyekti Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası qanununda müəyyən edilmiş xırda hədiyyələr istisna olmaqla hər hansı maddi və sair nemət, imtiyaz və ya güzəşt hesab edilir. GDQ hesab edir ki, bu qaydalar Konvensiyada müəyyən edilmiş "qanunsuz üstünlük" anlayışı ilə eynilik təşkil edir.

58. Özəl sahədə rüşvətlə ələ almaya qayıtsaq, GDQ qeyd edir ki, 2006-cı ildə edilmiş dəyişikliyə əsasən Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsində müəyyən edilmiş "vəzifəli şəxs" anlayışına "kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər" də daxildir. Səlahiyyətli şəxslərin və görüşlər zamanı digər həmsöhbətlərin dediyinə görə özəl sektor qurumunun adından hərəkət edən şəxslər ona görə də Cinayət Məcəlləsinin 311 və 312-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Bununla belə izah edilmişdir ki, "təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən" termini müvafiq qurum tərkibində müəyyən məsuliyyət dərəcəsini nəzərdə tutur, bu mənada o yalnız "müxtəlif təşkilati strukturlarda işçi qruplarda idarəetmə funksiyalarını həyata keçirən və habelə istehsal fəaliyyəti və iqtisadi sahələri idarə edən şəxslərə tətbiq olunur". Qeyd edilir ki, bu funksiyalar işçilərin seçilməsi, təyin edilməsi və vəzifədən azad edilməsi, fəaliyyətin planlaşdırılması, intizama nəzarət və sair kimi tipik funksiyaları ehtiva edir. Bundan əlavə qeyd edilir ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsi hüquqi şəxs olmayan təşkilatları əhatə etmir. Bunun əksinə olaraq, Konvensiyanın 7 və 8-ci maddələri birmənalı şəkildə özəl sektor qurumunun hüquqi şəxs olub-olmamasından, şəxsin öhdəlik və məsuliyyətindən asılı olmayaraq "özəl sektor qurumunda həmin qurumu idarə edən və onun üçün işləyən hər hansı şəxsə" aiddir. Bu xüsusi və aydın çatışmazlıqlara əlavə olaraq GDQ qanunverici tərəfindən özəl sektorda olan şəxslərin Cinayət Məcəlləsinin 308-ci maddəsinin (vəzifə səlahiyyətlərindən sui-istifadə) qeyd hissəsində "vəzifəli şəxs" anlayışına daxil edilməsi kimi ziddiyyətli yanaşması ilə əlaqədar narahatlıq duyur. Baxmayaraq ki, görüşlər zamanı qeyd edilmişdir ki, praktiki işlə məşğul olan hüquqşünaslar özəl sektorda olan rüşvətlə ələ alma cinayətlərini bu hüquqi bazaya əsasən təqib edə bilirlər (məsələn 2009-cu ildə 55 özəl sektor "vəzifəli şəxs"i Cinayət Məcəlləsinin 33-cü fəslinin normalarına əsasən cinayət məsuliyyətinə cəlb edilmişlər və bu işlərdən biri passiv rüşvətlə ələ almaya görə olmuşdur), GDQ bəzi həmsöhbətlər tərəfindən ifadə olunmuş o fikri paylaşır ki, özəl sektor üçün xüsusi olaraq hazırlanmış və bu sahədə rüşvətlə ələ alma əməllərini əhatə edən ayrıca maddənin olması həm sistem üçün ümumilikdə faydalı olar, həm də Konvensiyanın 7 və 8-ci maddələrinin tələblərinə cavab verər. Ona görə də, GDQ tövsiyə edir ki, **(i) özəl sektorda rüşvətlə ələ alma üçün Cinayət Məcəlləsinə xüsusi normaların daxil edilməsi məsələsinə baxılsın. (ii) Konvensiyanın 7 və 8-ci maddələrində nəzərdə tutulmuş qaydada özəl sektorda rüşvətlə ələ alma ilə bağlı qanunvericiliyin özəl sektor qurumunu idarə edən və onun üçün işləyən bütün şəxsləri əhatə etməsi təmin edilsin.**

59. Nüfuz alverinə gəlincə GDQ Azərbaycanda bununla bağlı xüsusi vəziyyət ilə rastlaşmışdır. Azərbaycan Respublikası Konvensiyanın 12-ci maddəsinə qeyd-şərt etmiş (ən son 1 iyun 2010-cu il tarixə 3 il müddətinə yenilənmişdir), bununla belə bu hüquq pozuntusu Konvensiya ilə müqayisədə bir sıra çatışmazlıqlar ilə olsa da 2006-cı ildə Cinayət Məcəlləsinə 312-1-ci maddəsi ilə daxil edilmişdir. Birincisi, 312-1-ci maddə

rüşvətlə ələ alma cinayətlərində olduğu kimi "vəzifəli şəxs" anlayışından istifadə edir ki, bu anlayış dövlət qulluqçularının və digər işçilərin müəyyən hissəsini, xarici vəzifəli şəxsləri, xarici seçkili orqanların üzvlərini, habelə hazırkı hesabatda təhlil edildiyi beynəlxalq təşkilatların bəzi vəzifəli şəxslərini, beynəlxalq parlament Assambleyalarının üzvlərini, beynəlxalq məhkəmələrin hakimlərini və vəzifəli şəxslərini istisna edir. İkincisi, Cinayət Məcəlləsinin 312-1-ci maddəsi "təklif", "vəd", habelə "təklif və ya vədin qəbul edilməsi" anlayışlarından istifadə etmir. Bununla bağlı, GDQ oxşar xarakter daşıyan Cinayət Məcəlləsinin 311 və 312-ci maddələri ilə bağlı şərhlərinə istinad edir. Üçüncüsü, nüfuz alveri cinayətinin dolayı yolla törədilməsi tənzimlənməmişdir, amma rüşvətlə ələ alma cinayətləri müəyyən etmişdir ki, rüşvətlə ələ alma cinayətləri "birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə" törədilə bilər. Dördüncüsü, aktiv nüfuzla alver etmə müddəası üçüncü şəxsin xeyrinə terminindən istifadə etmir, amma passiv nüfuzla alver etmə normasında "özü və ya üçüncü şəxsin xeyrinə" anlayışı açıqca nizamlanmışdır. GDQ qeyd etmək istəyir ki, ardıcıllıq və aydınlığın təmin olunması üçün bütün korrupsiya normalarının eyni əsas elementlərə malik olması çox mühüm əhəmiyyətə malikdir. Ona görə də nüfuz alverinin dolayı yolla törədilməsinin və üçüncü şəxsin xeyrinə törədilməsinin daxil edilməsi şübhəsiz Konvensiyanın 12-ci maddəsinin tələblərinə cavab vermək baxımından önəmlidir. Nəticə olaraq, GDQ hökumətdə müzakirə edilmiş qeyd şərtin geri götürülməsi və ya yenilənməməsi barədə ideyanı dəstəkləyir. Yuxarıda göstərilənləri nəzərə alaraq, GDQ tövsiyə edir ki, **Konvensiyanın 12-ci maddəsinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın. Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin xüsusən hədəf olan şəxslər, korrupsion davranışın müxtəlif formaları, habelə dolayı və 3-cü şəxsin xeyrinə elementləri daxil olmaqla Konvensiyanın 12-ci maddəsi ilə uyğunlaşdırılması məsələsinə baxılsın.**

**60.** Korrupsiya cinayətlərinə görə sanksiyalar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi Konvensiyanın 19-cu maddəsinin 1-ci paraqrafının tələblərinə uyğundur. Rüşvətlə ələ alma cinayətlərinə görə sanksiyaların səviyyəsi rüşvət alan vəzifəli şəxs tərəfindən törədilmiş hərəkət və ya hərəkətsizliyin qanuni və qanunsuz olmasından asılıdır. Ən ağır formalarında, məsələn özəl sahədə və dövlət sahəsində qanunsuz hərəkət və ya hərəkətsizliyə görə maksimum 8 il azadlıqdan məhrum etmə (aktiv rüşvətlə ələ alma) və 10 il azadlıqdan məhrum etmə (passiv rüşvətlə ələ alma) ilə cəzalandırılır. Nüfuz alveri cinayəti 5 və 7 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bununla belə xatırladılmalıdır ki, rədd edilmiş təklif və ya vəd işləri və real təklif və ya vədin qəbul edilməsi yalnız başa çatmayan cinayətin tərkibini, başqa sözlə nüfuz alveri etməyə hazırlıq və cəhdin tərkibini yaradır. Bu cür hallarda cinayətə hazırlığa görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin yarısından çox ola bilməz. Cinayət etməyə cəhdə görə cəzanın müddəti və ya həcmi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz. GDQ yuxarıda göstərilmiş korrupsion davranışın əsas formalarına görə cəzaların əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə bağlı narahatlığına istinad edir. Bundan başqa, 2005-2010-cu ilin statistikasına baxdıqda, GDQ narahatlıq keçirir ki, 2005-2010-cu il tarixlərdə yalnız 34 şəxs Cinayət Məcəlləsinin 311-ci maddəsi (passiv rüşvətxorluq), 9 şəxs 312-ci maddə (aktiv rüşvətxorluq) və 5 nəfər 312-1-ci maddə (nüfuz alveri) cinayətinə görə ittiham olunmuşdur. Bu hüquq mühafizə orqanlarının müvafiq yeni normalardan kifayət qədər xəbərdar olub olmamaları və korrupsiya cinayətlərinin istintaqının aparılması üçün kifayət qədər resurs və bacarıqlara malik olub olmamaları məsələsini qabardır. GDQ-nun bu nöqteyi-nəzəri ilə bağlı məsələ diqqətlə təhlil edilməli, xüsusilə bu

hesabatda qaldırılmış qanunvericiliyə mümkün dəyişikliklər barədə treninq və metodiki tövsiyələr barədə tədbirlər həyata keçirilməlidir.

61. Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeyd hissəsi həm dövlət, həm də özəl sahədə rüşvət vermiş şəxs üçün xüsusi müdafiə təmin edir ki, bu rüşvət verən şəxsi cinayət məsuliyyətindən "vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə" şərti ilə azad edilir. Səfər zamanı, GDQ bu müdafiə ilə bağlı bir sıra spesifik məsələləri aydınlaşdırmaq imkanına malik olmuşdur. Görüşlər zamanı aydın olmuşdur ki, ikinci halda, yəni səmimi peşmançılıq halında müdafiə o halda tətbiq edilə bilər ki, rüşvət verən şəxs bu hələ aşkar edilməmiş, ya da aşkar edildiyini bilməmiş məlumat vermiş olsun. Bundan əlavə, izah edilmişdir ki, cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirə edilməsinin ümumi qaydalarına müvafiq olaraq səmimi peşmançılıq zamanı verilmiş rüşvət həmin şəxsə geri qaytarılmır və müsadirə edilir. Son olaraq, qeyd edilmişdir ki, cinayət məsuliyyətindən azad etmə məsələsi prokuror tərəfindən həll edilir. Əgər müdafiə şərtləri aşkar edilsə, prokuror rüşvət vermiş şəxsi cinayət məsuliyyətinə cəlb etməyə bilər. Səmimi peşmançılıq müddəasının praktiki tətbiqinə münasibətdə bəzi həmsöhbətlər müzakirə zamanı bildirmişlər ki, bu praktika kifayət qədər səmərəsiz və az tətbiq edilən olmuşdur. (Baş Prokurorluqdan təqdim edilmiş statistikaya əsasən bu 2005-2010-cu il tarixlərdə cəmi 12 şəxsə münasibətdə tətbiq olunmuşdur). Digər tərəfdən, bəzi vəzifəli şəxslər və digər həmsöhbətlər bu müddəanın korrupsiya əməllərinin qarşısının alınmasında önəmli stimul olduğunu bildirmişlər. Baxmayaraq ki, GDQ aktiv rüşvətlə ələ almaya görə məhkumetmələrin sayının az olmasından narahatlıq keçirir (2005-2010-cu illərdə cəmi 5), prinsipcə səlahiyyətli şəxslərin bu vasitənin məlumat vermək üçün stimul kimi istifadə edilməsi məqsədi ilə qalması barədə qərarını qəbul edir. Bir sıra həmsöhbətlərin fikrincə bu normanın Azərbaycan Respublikasında aktiv həvəsləndirilməsinə ehtiyac vardır. Bunun əksinə olaraq, GDQ bu müdafiənin avtomatik xarakteri ilə bağlı narahatlıqları vardır. Belə ki, rüşvət verən şəxslə bağlı vəziyyətin və məlumat vermək motivlərinin prokuror və ya məhkəmə tərəfindən baxılması imkanı yoxdur. Prinsipcə, aktiv korrupsiya ilə əlaqədar çox mühüm işlər üzrə bu müdafiəyə əsasən cəzadan tam azad olunmaq olar və bu rüşvət verən şəxs tərəfindən rüşvət alan şəxsə gələcək üstünlüklərin əldə edilməsi məqsədi ilə təzyiq kimi istifadə oluna bilər. Ona görə də, GRECO-nun bu məsələ ilə əlaqədar bəyanatına uyğun olaraq, GDQ tövsiyə edir ki, **səlahiyyətli orqanlara məlumat vermiş aktiv rüşvət verən şəxslərin cəzadan avtomatik və tam olaraq azad edilməsi məsələsini təhlil edib nəticəsindən asılı olaraq islahatı məsələsi həll edilsin.**

62. Ərazi və vətəndaşlıq yurisdiksiya prinsipləri bütün korrupsiya ilə əlaqədar cinayətlərə tətbiq edilir. Vətəndaşlıq yurisdiksiyasına müvafiq olaraq, Cinayət Məcəlləsinin 12-ci maddəsinin 1-ci bəndi Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş Azərbaycan vətəndaşlarının və daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin cinayət məsuliyyətini müəyyən edir, amma ikili kriminallıq şərti ilə. Bu o deməkdir ki, Azərbaycan Respublikasının vətəndaşı yalnız o zaman korrupsiya cinayətinə görə cinayət məsuliyyətinə cəlb edilə bilər ki, bu həm də həmin xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılsın və məhkəmə bu zaman həmin dövlətin cinayət qanunvericiliyində nəzərdə tutulmuş cəzanın maksimum həddindən artıq cəza təyin edə bilməz. Bu müddəalar Konvensiyanın 17-ci maddəsinin 1-ci bəndinin tətbiqi imkanlarını məhdudlaşdırır. Nəticə olaraq, GDQ tövsiyə edir ki, **xaricdə törədilmiş rüşvətlə ələ alma və nüfuz alveri cinayətləri üçün ikili kriminallaşdırma məsələsini qanunvericilikdə ləğv edilsin.**

63. Bundan əlavə, GDQ qeyd edir ki, Konvensiyanın 17-ci maddəsinin 1-ci bəndi yalnız vətəndaşlar tərəfindən xaricdə törədilmiş cinayətlərə görə yurisdiksiyanı müəyyən etmir, həm də vətəndaşlıq yurisdiksiyasını üzv dövlətlərin vəzifəli şəxsləri və milli seçkili orqanlarının üzvləri daxil olmaqla genişləndirir – məsələn heç də vətəndaş olması lazım deyil. Bu genişlənmə Cinayət Məcəlləsinin 12-ci maddəsinin 1-ci bəndində heç də tam öz əksini tapmamış və yalnız Azərbaycan Respublikasının vətəndaşlığı olan və ya ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər nəzərdə tutulmuşdur. Yerli vəzifəli şəxslər və milli seçkili orqanların üzvləri hansı ki, eyni zamanda Azərbaycan Respublikası vətəndaşları və ya ərazisində daimi yaşayan şəxslər deyillər, tənzimetmədən kənarda qala bilərlər. Buna baxmayaraq, səlahiyyətli şəxslər izah etmişlər ki, bu cür problem yarana bilməz, çünki Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən "vəzifəli şəxs" anlayışından daha geniş olan dövlət qulluqçuları ancaq Azərbaycan Respublikası vətəndaşı olmalıdır. GDQ bu izahı qəbul edir, lakin qeyd etmək istəyir ki, vəzifəli şəxslərə dair vətəndaşlıq tələbinə ilə bağlı qanunvericiliyə dəyişiklik olsa, o zaman yurisdiksiya barədə qanunvericiliyə də müvafiq dəyişikliklər edilməli olacaq. Son olaraq, GDQ müxtəlif həmsöhbətlərlə Konvensiyanın 17-ci maddəsinin 1c bəndində nəzərdə tutulmuş standartların milli qanunvericiliyə daxil edilməsini müzakirə etmişdir, məsələn eyni zamanda milli vəzifəli şəxs, milli və ya beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və ya beynəlxalq məhkəmələrin hakimləri və ya vəzifəli şəxsləri olan vətəndaşların iştirakçılığı ilə əlaqədar yurisdiksiya. Müəyyən edilmişdir ki, Cinayət Məcəlləsinin 12-ci maddəsinin 2-ci bəndi müvafiq halların bəzilərini əhatə etsə də, hamısını əhatə etmir. Bu müddəa xüsusi olaraq Azərbaycan Respublikasının maraqlarına qəsd edilməsi üzərində də yurisdiksiyanı müəyyən edir. Nəticə etibarı ilə, GDQ nəticə gəlir ki, Azərbaycan Respublikasının bu sahədə qanunvericiliyi Konvensiyanın 17-ci maddəsinin 1c bəndi ilə tam uyğunluq təşkil etmir və ona görə də tövsiyə edir ki, **eyni zamanda Azərbaycan Respublikası vətəndaşı olan beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimlərinin iştirakı ilə vətəndaşlığı olmayan şəxslər tərəfindən xaricdə törədilmiş korrupsiya cinayətlərinə görə cinayət məsuliyyətini müəyyən edən müvafiq qanunvericilik yurisdiksiyasını təmin etsin.**

## V. <u>NƏTICƏ</u>

64. Cinayət Məcəlləsinin korrupsiya ilə əlaqədar normalarına 2006-cı ildə edilmiş dəyişikliklər Azərbaycan qanunvericiliyinin Konvensiyanın tələblərinə uyğunlaşdırılması istiqamətində irəliyə atılmış mühüm addım hesab edilməlidir. Buna baxmayaraq, qalmış çatışmazlıqları aradan qaldırmaq məqsədi ilə gələcəkdə mühüm dəyişikliklərin edilməsi zəruridir. Hal-hazırda, müvafiq rüşvətlə ələ alma müddəalarında istifadə edilən "vəzifəli şəxs" anlayışı mərkəzi və yerli səviyyədə bütün dövlət qulluqçularını və digər işçiləri əhatə etmir. Rüşvət təklifi, vədi və təklif və ya vədin qəbul edilməsi bitmiş cinayət tərkibini yaratmır. Nüfuz alverinin kriminallaşdırılması zamanı qismən rüşvətlə ələ cinayətlərində aşkar edilmiş çatışmazlıqlar var, özəl sektorda rüşvətlə ələ alma cinayətlərində özəl sektor qurumunda işləyə *hər hansı* anlayışı əhatə olunmur. Vətəndaşlıq yurisdiksiyası ilə bağlı Azərbaycan Respublikası rüşvətlə ələ alma və nüfuz alveri cinayətlərində ikili kriminallıq tələbinin ləğv edilməsinə inandırılmışdır. Bundan əlavə, sui-istifadə hallarının məhdudlaşdırılması məqsədi ilə könüllü məlumat vermiş rüşvət verən şəxslərin cinayət məsuliyyətindən azad olunması imkanı yenidən nəzərdən keçirilməlidir. Son olaraq, cari korrupsiya müddəaları xarici və beynəlxalq vəzifəli şəxslərin, yerli və xarici andlı iclasçıların və arbitrləri əhatə etmir.

Azərbaycan Respublikası Konvensiyanın maddələrinə edilmiş qeyd şərtlərinə yenidən baxmalı və bundan əlavə Konvensiyaya Əlavə Protokola qoşulmalıdır. Qeyd edilməlidir ki, Azərbaycanın Konvensiyaya qoşulmasından 6 il keçsə də, o, Konvensiyanın maddələrinə ən çox qeyd-şərt etmiş ölkələrdən biri olmaqda davam edir. Cinayət Məcəlləsinə yenidən baxılması prosesi gedir və cari hesabat və onu tövsiyələri indi davam edən islahat prosesinə vaxtında verilmiş töhfə kimi qiymətləndirilməlidir. Hər şeydən əvvəl Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizəsində ən böyük vəzifə qanunvericiliyin səmərəli tətbiqindən keçir. Bu müvafiq cinayət müddəalarının praktikada daha həlledici və dəqiq tətbiqinə çağırır.

65. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, GRECO Azərbaycan Respublikasına aşağıdakı tövsiyələri ünvanlayır:

i. **dövlət qulluğu haqqında qanunvericilikdə nəzərdə tutulmuş dövlət qulluqçularının bütün kateqoriyaları və idarəetmə və ya təşkilatı funksiyaları olmayan dövlət qulluqçuları da daxil olmaqla mərkəzi və yerli səviyyədə vəzifəli şəxslərin bütün kateqoriyalarının rüşvətlə ələ alınmasının kriminallaşdırılması üçün bütün zəruri qanunvericilik tədbirləri görülsün.**

ii. **Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq xarici vəzifəli şəxslərin rüşvətlə aktiv ələ alınması kriminallaşdırılsın; (ii) xarici vəzifəli şəxslərin passiv rüşvətlə ələ alınması, habelə xarici seçkili orqanların üzvlərinin aktiv və passiv rüşvətxorluğunun kriminallaşdırılması məsələsinə, habelə konvensiyanın bu maddələrinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın; (iii) Konvensiyanın 11-ci maddəsinə müvafiq olaraq beynəlxalq məhkəmələrin bütün hakimlərinin və vəzifəli şəxslərinin rüşvətlə ələ alınması birmənalı olaraq kriminallaşdırılsın; və (iv) Konvensiyanın 9 və 10-cu maddələrinə müvafiq olaraq beynəlxalq təşkilatların və beynəlxalq parlament assambleyalarının bütün vəzifəli şəxslərinin rüşvətlə ələ alınmasının kriminallaşdırılmasını təmin etmək üçün bütün qanunvericilik tədbirlərinin görülməsi və habelə konvensiyanın bu maddələrinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın.**

iii. **Konvensiyaya Əlavə Protokol mümkün qədər tez bir müddətdə imzalanıb ratifikasiya edilsin və həmin Protokolun 2,3,4,5 və 6-cı maddələrinə uyğun olaraq yerli və xarici andlı iclasçı və arbitrlərin aktiv və passiv rüşvətlə ələ alınması kriminallaşdırılsın.**

iv. **aktiv və ya passiv rüşvətlə ələ alma cinayətində "təklif etmə", "vəd vermə" və "təklif və ya vədin qəbul edilməsi" anlayışlarını daxil edilsin.**

v. **i)özəl sektorda rüşvətlə ələ alma üçün Cinayət Məcəlləsinə xüsusi normaların daxil edilməsi məsələsinə baxılsın. (ii) Konvensiyanın 7 və 8-ci maddələrində nəzərdə tutulmuş qaydada özəl sektorda rüşvətlə ələ alma ilə bağlı qanunvericiliyin özəl sektor qurumunu idarə edən və onun üçün işləyən bütün şəxsləri əhatə etməsi təmin edilsin.**

**vi. Konvensiyanın 12-ci maddəsinə qeyd-şərtin geri götürülməsi və ya yenilənməməsi məsələsinə baxılsın. Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin xüsusən hədəf olan şəxslər, korrupsion davranışın müxtəlif formaları, habelə dolayı və 3-cü şəxsin xeyrinə elementləri daxil olmaqla Konvensiyanın 12-ci maddəsi ilə uyğunlaşdırılması məsələsinə baxılsın.**

**vii. səlahiyyətli orqanlara məlumat vermiş aktiv rüşvət verən şəxslərin cəzadan avtomatik və tam olaraq azad edilməsi məsələsini təhlil edib nəticəsindən asılı olaraq islahatı məsələsi həll edilsin.**

**viii. xaricdə törədilmiş rüşvətlə ələ alma və nüfuz alveri cinayətləri üçün ikili kriminallaşdırma məsələsini qanunvericilikdə ləğv edilsin.**

**ix. eyni zamanda Azərbaycan Respublikası vətəndaşı olan beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimlərinin iştirakı ilə vətəndaşlığı olmayan şəxslər tərəfindən xaricdə törədilmiş korrupsiya cinayətlərinə görə cinayət məsuliyyətini müəyyən edən müvafiq qanunvericilik yurisdiksiyası təmin edilsin.**

66. Prosedur Qaydaların 30.2-ci Qaydasına uyğun olaraq GRECO Azərbaycan səlahiyyətli orqanlarını yuxarıda göstərilən tövsiyələrin icrası ilə əlaqədar hesabatı 30 aprel 2012-ci il tarixə kimi təqdim etməyə dəvət edir.

67. Son olaraq, GRECO Azərbaycan səlahiyyətli orqanlarını mümkün qədər tez bir müddətdə bu hesabatı dərc etməyə və milli dilə tərcümə etməyə və açıqlamağa dəvət edir.